# RÜŞVƏTXORLUQ VƏ KORRUPSİYAYA QARŞI

## QLOBAL SİYASƏT



# MƏZMUN

**Bu siyasət rüşvətxorluq və korrupsiya qanun və qaydalarına uyğunluq üçün çərçivəni müəyyən edir, "Carlsberg"in vicdanla və hüquqi tələblərə uyğun şəkildə fəaliyyət göstərdiyini təmin edir.**

Bura ABŞ-ın Xarici Korrupsiya Praktikaları Aktı, ABŞ-ın 2010-cu il tarixli Rüşvətxorluq Aktı və digər mövcud milli rüşvətxorluğa qarşı qanunvericilik və tətbiq edilən əsasnamələr daxildir, lakin bunlarla məhdudlaşmır.

Bu siyasətin məqsədi aşağıdakılardır:

1. "Carlsberg"in bütün əməliyyatlarında rüşvət və korrupsiyaya qarşı qadağaları müəyyənləşdirib izah etmək.

2. Bu qadağalar ilə əlaqəli xüsusi uyğunluq tələblərini vurğulamaq.

3. "Carlsberg"in qlobal miqyasda iş fəaliyyətini ən yüksək səviyyədə dürüstlük və vicdanla yerinə yetirmək öhdəliyini möhkəmləndirmək.

Bu niyə vacibdir? Mövcud korrupsiyaya qarşı qanunların pozulması "Carlsberg"i, işçilərini və üçüncü tərəf vasitəçiləri (harada olursa olsun) əhəmiyyətli cinayət və mülki məsuliyyətə, cərimələrə və cəzalara məruz qoya bilər.

# BİZİM ÖHDƏLİYİMİZ

**"Carlsberg"də biz həmişə daha yaxşısı üçün - daha yaxşı pivələr, innovativ yeniliklər, planetimizə hörmət və etik iş normalarını dəstəkləmək üçün səy göstərmişik.**

Bu siyasət "Carlsberg"ə dünyadakı bütün əməliyyatlarında iş etikasına və maksimum dürüstlüyə əməl etmək öhdəliyi verir.
Bu siyasətin əsaslandırması yalnız qanuna uyğunluqdan ibarət deyil. Korrupsiya bütün dünyada yoxsulluqla mübarizəni çətinləşdirən ciddi bir məsələdir və bu siyasəti dəstəkləyərək biz Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasında göstərilən müvafiq standartlara riayət etmək öhdəliyimizi nümayiş etdiririk.

# BU SİYASƏT KİMLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULUB?

Bu siyasət menecerlər, işçilər və podratçılar da daxil olmaqla, Carlsberg-in bütün əməkdaşlarına tətbiq edilir,

1. "Carlsberg Group"a daxil olan bütün qurumlar.

2. "Carlsberg"in əsas səhmdar olduğu birgə müəssisə subyektləri.

# BU SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

Biz, "Carlsberg" olaraq, dünyadakı bütün əməliyyatlarda işi ədalətlə və vicdanla yerinə yetirməyə çalışırıq. İstər işçilərimizin, istərsə də bizim adımızdan fəaliyyət göstərən üçüncü tərəflərin həyata keçirməsindən asılı olmayaraq, biz rüşvətxorluğun və korrupsiyanın heç bir formasına dözümlülük göstərmirik.



# TƏLƏBLƏR

## 1. QADAĞAN EDİLMİŞ VƏ MƏHDUDLAŞDIRILMIŞ ÖDƏNİŞLƏR

**1.1.** Qeyri-məqbul üstünlük əldə etmək üçün dövlət rəsmisinə pul və ya başqa dəyərli əşyanın təklif edilməsi, vəd edilməsi, yaxud verilməsinə icazə qəti qadağandır.

1.2. Heç bir əməkdaş qeyri-məqbul üstünlük əldə etmək üçün **özəl sektorda fəaliyyət göstərən fiziki və ya hüquqi şəxsə** pul və ya başqa dəyərli əşyanı təklif edə, verə, vəd edə və/və ya onlardan qəbul edə bilməz.

1.3. Hətta digər şəxs qəbul etməsə belə, qeyri-məqbul üstünlük əldə etmək üçün hər hansı dəyərli əşya *təklif etmək* qadağandır.

1.4. "Dəyərli əşya" aşağıdakıları əhatə edə bilər:

- Nağd pul, kuponlar, şəxsi faydalar və ya xeyirlər.
- Hədiyyələr, yeməklər, əyləncə, səyahət, ianə, sponsorluq və ya təlim.

1.5. Bu bölmə işçilərin və agentlər, məsləhətçilər, təchizatçılar, yaxud digər vasitəçilər kimi üçüncü tərəflərin yerinə yetirdiyi hərəkətlərə tətbiq edilir.

## 2. SÜRƏTLƏNDİRMƏ ÖDƏNİŞLƏRİ

**2.1.** "Carlsberg" işçilər və ya üçüncü tərəflərin həyata keçirdiyi sürətləndirmə ödənişlərinə icazə vermir. Sürətləndirmə ödənişləri lisenziya və ya icazə almaq kimi adi dövlət əməliyyatlarını sürətləndirmək və ya təmin etmək üçün adətən dövlət rəsmisinə edilən kiçik, qeyri-rəsmi ödənişlərdir.

2.2. İstisna hallarda, yəni işçinin təhlükəsizliyi risk altında olduqda, sürətləndirmə ödənişinə icazə verilə bilər.

2.3. 2.2-ci bölmədə göstərildiyi kimi ödəniş edildikdə, dərhal Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbərinə hadisə haqqında hesabat verilməlidir. Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Təlimatı sürətləndirmə ödənişinin nə zaman qaçınılmaz hesab edildiyini, necə və nə haqqında hesabat verilməli olduğunu izah edir.

## 3. HƏDİYYƏLƏR, QONAQPƏRVƏRLİK VƏ SƏYAHƏT

**3.1.** Hədiyyələr, qonaqpərvərlik və səyahət yalnız müvafiq işgüzar məqsədlər üçün təklif edilməli, vəd edilməli və ya qəbul edilməlidir. Kiçik dəyərli hədiyyələr və ya qonaqpərvərlik işgüzar münasibətləri inkişaf etdirmək üçün uyğun bir yol olsa da, heç vaxt qeyri-məqbul üstünlük əldə etmək və ya saxlamaq üçün, yaxud dövlət rəsmisinin verdiyi qərara təsir göstərmək üçün heç kəsə təklif edilməməli və ya vəd edilməməlidir.

3.2. Hədiyyələr, Qonaqpərvərlik və İanələr Təlimatı aşağıdakılar haqqında ətraflı məlumat verir:

- Hədiyyələr və ya qonaqpərvərliyin təklif edilə, vəd edilə, yaxud qəbul edilə biləcəyi hallar,
- Müvafiq hədiyyələr və ya qonaqpərvərliyi qeyd etmək və zəruri təsdiqləri əldə etmək üçün qaydalar.
- Təklif edilən alıcı dövlət rəsmisi olduqda daha ciddi tələblər tətbiq edilir.

## 4. XEYRİYYƏ MƏQSƏDLİ İANƏLƏR VƏ SPONSORLUQLAR

**4.1.** "Carlsberg" iş apardığımız icmalara müsbət töhfələri dəstəkləyir və xeyriyyə təşkilatları və sponsorluqlara məqbul dərəcədə ianələr etməyə icazə verir. Heç vaxt kiminsə qərarına qeyri-məqbul şəkildə təsir göstərmək üçün ianə və ya sponsorluq təklif etməməlisiniz.

4.2. "Carlsberg"in adından hər hansı xeyriyyə məqsədli ianə etdikdən və ya sponsor olduqdan əvvəl müvafiq yoxlama aparmalı və yerli hüquq şöbəsindən daxili təsdiq almalısınız.

4.3. Bütün ianələr düzgün şəkildə ianələr reyestrində qeyd edilməlidir. Ətraflı məlumat almaq üçün Hədiyyələr, Qonaqpərvərlik və İanələr Təlimatına baxın.

# **TƏLƏBLƏR** (DAVAMI)

## 5. ÜÇÜNCÜ TƏRƏFLƏR

**5.1.** Xüsusilə, üçüncü tərəf vasitəçinin bizim adımızdan xidmətlər göstərdiyi, yaxud başqa şəkildə dövlət və ya özəl təşkilatlar ilə razılaşmalar, müzakirələr və ya danışıqlar apardığı hallarda "Carlsberg" üçüncü tərəflərin hərəkətlərinə görə məsuliyyətə cəlb edilə bilər.

5.2. "Carlsberg"in qeyri-məqbul davranışdan xəbərdar olub-olmamasından asılı olmayaraq, üçüncü tərəflərin rüşvətxorluqla məşğul olmasının qarşısını olmaq üçün tədbir görmədiyimizə görə də məsuliyyət daşıya bilərik.

5.3. Heç vaxt üçüncü tərəflərdən bu siyasətə əsasən işçilərə qadağan edilən hərəkətləri etməklərini istəmək olmaz.

5.4. "Carlsberg" ilə işləyən bütün üçüncü tərəflərin ən yüksək səviyyədə işgüzar, peşəkar və hüquqi dürüstlüklə fəaliyyət göstərməkləri tələb olunur.

5.5. Hər hansı işçi üçüncü tərəflə işgüzar münasibət qurmaq istədikdə həmin üçüncü tərəf ilə əlaqə qurandan əvvəl bizim Üçüncü Tərəfləri Yoxlama Prosedurumuzda təsvir edilən yoxlama prosesini diqqətlə nəzərdən keçirməli və ona əməl etməlidir. Ətraflı məlumat üçün Üçüncü Tərəfləri Yoxlama Təlimatına baxın.

## 6. KİTABLAR, QEYDLƏR, MÜHASİBATLIQ VƏ ÖDƏNİŞ TƏCRÜBƏLƏRİ

6.1. Rüşvətin və qanunsuz ödənişlərin ödənilməsinin və ya qəbul edilməsinin qarşısını almaq üçün bizim bütün iş və maliyyə qeydlərimiz işimizlə və/və ya şirkət aktivlərindən istifadə ilə əlaqəli hər bir əməliyyatı ədalətli və dəqiq şəkildə əks etdirməlidir.

6.2. Gizli, qeyd edilməmiş və ya bildirilməmiş əməliyyatlar qadağandır.

6.3. Bütün xərclər dəqiq şəkildə uçota alınmalı, müvafiq dəstəkləyici sənədləri ehtiva etməli və geri ödəniləndən əvvəl dərhal şirkətin hesabatına daxil edilməlidir.

6.4. "Carlsberg"i təmsil edən üçüncü tərəf vasitəçilərə edilən bütün ödənişlər dəqiq şəkildə müəyyən edilməlidir (xərclər hesabatında müvafiq iş və maliyyə qeydlərində).

## 7. MARAQLARIN TOQQUŞMASI

**7.1.** Maraqların toqquşması şəxsi maraqlarınız və başqalarının maraqlarının obyektiv və Carlsberg-in maraqlarına uyğun hərəkət etmə qabiliyyətinizə təsir göstərə biləcəyi hallarda baş verir.

7.2. Maraqların toqquşması müəyyən edilməsə, açıqlanmasa və düzgün şəkildə həll edilməsə, bu, qərar vermənin pozulmasına və qeyri-etik davranışlara səbəb ola bilər.

7.3. Maraqların toqquşması ilə bağlı açıqlama prosesi haqqında əlavə məlumat almaq üçün Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Təlimatına baxın.

## 8. HESABAT ÖHDƏLİKLƏRİ

Aşağıdakı hesabat öhdəlikləri məcburidir və yerli hüquq məsləhətçiləri də daxil olmaqla, bütün işçilər tərəfindən yerinə yetirilməlidir:

8.1. Bütün işçilər xəbərdar olduqları bütün faktiki və potensial pozuntular, araşdırmalar, məhkumluq və/və ya rüşvətxorluq və korrupsiya ilə əlaqəli cərimələr haqqında dərhal Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbərinə məlumat verməlidirlər.

8.2. Şübhələnən, bu siyasətin pozulduğunu düşünən və ya "Group"dakı kiminsə, yaxud hər hansı bir şəkildə "Group" ilə işləyən üçüncü şəxsin keçmiş və ya nəzərdə tutulan hərəkətləri ilə bağlı narahat olan hər bir işçi Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbəri ilə əlaqə saxlaya, yaxud aşağıda təsvir edilən Speak Up vasitələrindən istifadə edə bilər.

# QAYDA POZUNTUSU NECƏ BİLDİRİLMƏLİDİR

**Siz siyasətlərimizə uyğunluqla bağlı hər hansı şübhəli pozuntuları soruşmaq, rəhbərlikdən məsləhət almaq və hesabat vermək üçün məsuliyyət daşıyırsınız.**

"Carlsberg" işçilərinin və ya nümayəndələrinin bu siyasəti pozan davranışlarda iştirak etdiyini görsəniz və ya şübhələnsəniz, bu barədə menecerinizə və ya uyğunluq nümayəndəsinə məlumat verməlisiniz. Bundan əlavə, işçilər, dəyər zəncirimizin üzvləri və fəaliyyət göstərdiyimiz icmalar anonim olaraq Speak Up xəttimizdən və veb-əsaslı hesabat alətimizdən istifadə edə bilərlər. Məsələlər barədə bizə məlumat verildikdə, onları bildirənlərin hüquqlarını qoruyacağıq. Yaxşı niyyətlə məsələ qaldıran və ya istintaqa kömək edən hər kəsə qarşı hər hansı cəza və ya intiqam tədbirinə yol verməyəcəyik.

**Speak Up Təlimatımız işlərin necə araşdırıldığı barədə daha ətraflı məlumatı ehtiva edir.**



## TƏRİFLƏR VƏ ƏSAS ANLAYIŞLAR

**Carlsberg**
Bu siyasətdə "Carlsberg" sözü "Carlsberg"in əsas səhmdar olduğu və ya nəzarət etdiyi "Carlsberg Group" daxilində hər hansı iş bölməsinə, törəmə şirkətə, yaxud birgə müəssisəyə aiddir.

**Rüşvət**
İş sahəsində üstünlük əldə etmək və ya qorumaq məqsədilə bir şəxsin hərəkətlərinə və ya qərarlarına təsir göstərmək üçün verilən hər hansı dəyərli əşya.

**Korrupsiya**
Dövlət vəzifəsi və ya səlahiyyətindən şəxsi mənfəət üçün sui-istifadə etmək və ya dövlət çərçivəsindən kənarda işlə bağlı səlahiyyətdən sui-istifadə etmək.

**Dövlət rəsmisi**
Yerli, dövlət, regional və ya milli hökumətin, yaxud dövlət və ya ictimai beynəlxalq təşkilatın hər hansı şöbəsi, agentliyi və ya nazirliyin hər hansı vəzifəli şəxsi və ya işçisi. Dövlət müəssisələrinin işçiləri. Ətraflı tərif üçün Rüşvətxorluq və ya Korrupsiya ilə Mübarizə Təlimatına baxın.

**Qeyri-məqbul üstünlük**
Qeyri-məqbul əlverişli nəticə əldə etmək üçün birbaşa və ya dolayı yolla pul ödəmək və ya dəyərli əşya vermək. Məsələn:

- "Carlsberg"in başqa cür hüququ olmayan bir hökumət orqanından lisenziya və ya icazə almaq.
- Rəqiblərin fəaliyyətləri və ya iş imkanları haqqında məxfi məlumatları əldə etmək.
- Müqavilənin bağlanmasına və ya ləğv edilməsinə, eləcə də məhkəmə işlərinin, cərimələrin və ya icra tədbirlərinin qərar verilməsinə təsir etmək.

**Qanunsuz ödənişlər**
Əlavə işin verilməsi üçün mükafat olaraq artıq ödənilmiş və ya nəzərdə tutulan məbləğin geri qaytarılması.

**Üçüncü tərəf vasitəçi**
Şəxsin və ya qurumun adından və ya vəzifəsindən asılı olmayaraq, şirkət tərəfindən "Carlsberg Group" adından və ya hesabına fəaliyyət göstərmək üçün (rəsmi və ya qeyri-rəsmi şəkildə) cəlb edilmiş hər hansı şəxs və ya qurum.

# VƏZİFƏLƏR VƏ MƏSULİYYƏTLƏR

| VƏZİFƏ/AD | MƏSULİYYƏTLƏR |
|---|---|
| **ExCom Siyasət Sponsoru - "Group" üzrə Baş Maliyyə Direktoru** | • Qlobal Siyasət üzrə Sponsor strateji nəzarəti təmin edən yüksək vəzifəli rəhbərdir, zəruri resursların ayrılmasını təmin edir və siyasəti icraçı rəhbərlik səviyyəsində təşviq edir.<br>• Siyasət çərçivəsinin yekun təsdiqinə görə məsuliyyət daşıyır. |
| **QlobalSiyasətSahibi- "Group" üzrə Baş Məsləhətçi və Uyğunluq üzrə Baş Direktor** | • Qlobal Siyasət Sahibi təşkilatın strategiyası, uyğunluq tələbləri və əməliyyat ehtiyacları ilə uyğunluğu təmin edərək siyasətin ümumi etibarlılıq dövrünə görə məsuliyyət daşıyır.<br>• Bütün istisna və fərqliliklərin təsdiqini həyata keçirir və onlara nəzarət edir. |
| **Siyasət Məsələləri üzrə Ekspert - Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbəri** | •Siyasət məsələləri üzrə Mütəxəssis (SME) siyasətin mövzusu üzrə dərin ixtisaslaşmış biliklər təqdim edir, onun hazırlanmasını, tətbiqini və davamlı şəkildə yenilənməsini dəstəkləyir.<br>• Riskə əsaslanan illik siyasət fəaliyyət planını və təlim vasitələri toplusunu müəyyən edir və həyata keçirir.<br>• Siyasətə riayət olunmasına nəzarət edilməsinə və istisna hallarla bağlı göstərişlərin verilməsinə cavabdehdir. |
| **İdarəedici Direktorlar,**<br><br>**CCO / region səviyyələrində funksional rəhbərlər** | • Qlobal siyasətin yerli və ya funksiya səviyyələrində tətbiqinə, uyğunluğun qorunmasına və yerli tələblərə uyğunlaşdırılmasına cavabdehdir.<br>• Müntəzəm risk qiymətləndirilməsinin aparılmasına görə məsuliyyət daşıyır.<br>• Onlar dürüstlük mədəniyyətini təşviq edərək başqaları üçün nümunə olurlar. |
| **Hüquq şöbəsinin rəhbəri** | • Siyasət ilə uyğunluğun təmin olunmasına kömək etmək üçün Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Təlimatında daha ətraflı göstərilən təlimlərin keçirilməsi, monitorinq və fəaliyyətlərin həyata keçirilməsinə görə məsuliyyət daşıyır.<br>• Hüquq şöbəsinin rəhbəri yerli ekspert və dəstəkçi kimi çıxış edir, bazarda yaranan qanunları və riskləri izləyir və vacib məsələlərin həll edilməsini və lazım olduqda rəhbərliyə çatdırılmasını təmin edir. |
| **"Carlsberg" üçün və onun adından fəaliyyət göstərən bütün biznes bölmələri, menecerlər, işçilər və podratçılar** | • Gündəlik fəaliyyətlərində siyasətin mahiyyətini anlamaq və ona riayət etməklə bağlı məsuliyyət daşıyırlar.<br>• Siyasət yenilənmələri barədə məlumatlıdırlar və ona effektiv şəkildə riayət etməyi öyrənmək üçün təlim keçirlər.<br>• Şübhə yarandıqda həmişə yerli hüquq və ya uyğunluq üzrə nümayəndə ilə əlaqə saxlayın, lazım gəldikdə, o, Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbəri ilə yoxlamanı həyata keçirəcək. |





## NECƏ NƏZARƏT EDİRİK?

**Biz öz kodekslərimizə və siyasətlərimizə riayət olunmasını daxili nəzarət komandamızla əməkdaşlıq şəraitində həyata keçirilən daxili nəzarət qiymətləndirmə proqramı vasitəsilə izləyirik.**

Bundan əlavə, risklər hər il müəyyən edilir və hər bölmə onları özü qiymətləndirir. Həmçinin, prioritetləşdirilmiş daxili audit proqramı və ya uyğunluq üçün xüsusi dərin araşdırmalar və təsadüfi yoxlamalar müstəqil yoxlamanı təmin edir.

## UYĞUNSUZLUĞUN NƏTİCƏLƏRİ

Müxtəlif yurisdiksiyalardakı hökumət tənzimləyiciləri bizi araşdıra bilər və vəziyyətdən asılı olaraq, inzibati qaydada, mülki hüquq üzrə, yaxud cinayət hüququ üzrə cinayət işi aça bilərlər. Mövcud rüşvətxorluğa və korrupsiyaya qarşı qanunlar və tənzimləmələr pozulsa, bu, ciddi cərimələr və cəzalar, işdən çıxarmalar və həbs cəzası ilə nəticələnə bilər.

Bu siyasəti pozmaqda ittiham edilən hər hansı işçi mövcud qanunvericilik və şirkət siyasətinə uyğun olaraq intizam tədbirləri ilə üzləşəcək, bu tədbirlər işdən azad edilməyə qədər çata bilər.

Bu siyasəti pozan distribütorlar, təchizatçılar, agentlər, məsləhətçilər və "Carlsberg"də işləyən üçüncü tərəflər ilə işgüzar əlaqələr dayandırılacaqdır. Bu tərəflər həmçinin mövcud qanunvericilik üzrə mövcud olan digər hüquqi və düzəliş tədbirləri ilə üzləşə bilərlər.

## İSTİSNALAR VƏ YAYINMALAR

İstisna halların mövcud olmadığı təqdirdə bu siyasət heç bir istisna qəbul edilməyəcək. İstisna üçün hər hansı bir sorğu yazılı şəkildə siyasət sahibinə təqdim edilməlidir. Siyasət sahibi hər bir sorğunu fərdi olacaq qiymətləndirəcək və qərar verəcək. Verilmiş istisnalar müvafiq şəkildə qeyd olunmalı və sənədləşdirilməlidir.

## SİYASƏTƏ YENİDƏN BAXILMASI

Bu Siyasət zəruri hallarda və ən azı ildə bir dəfə nəzərdən keçiriləcək. İcra Komitəsinin müvafiq siyasət sponsorunun təsdiqi ilə istənilən vaxt dəyeşiklik edilə bilər. Əgər bu siyasətin ingilis dilindəki versiyası ilə tərcümə edilmiş versiyası arasında hər hansı uyğunsuzluq yaranarsa, ingilis dilindəki versiya üstünlük təşkil edəcək.

## ƏLAQƏLİ STANDARTLAR VƏ TƏLİMATLAR

- Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Təlimatı
- Hədiyyələr, Qonaqpərvərlik və İanələr Təlimatı
- Üçüncü Tərəflərin Yoxlanması Təlimatı
- Speak Up Təlimatı

## DƏSTƏKLƏYİCİ ALƏTLƏR VƏ RESURSLAR

- "Carlsberg"in Maraqların Toqquşması haqqında Bəyanatı
- "Carlsberg"in Üçüncü Tərəfləri Yoxlama vasitəsi

## ƏLAQƏ

Daha ətraflı məlumat üçün Rüşvətxorluq və Korrupsiya ilə Mübarizə Şöbəsinin Rəhbəri ilə əlaqə saxlayın.

**Versiya: 1**

Qüvvəyə minmə tarixi: 1 may 2025-ci il

Növbəti baxış tarixi: 1 may 2026-cı il

Siyasətin Sahibi: Ulrik Andersen, "Group" üzrə Baş Məsləhətçi və Uyğunluq üzrə Baş Direktor

Təsdiq edən: Ulrica Fearn, "Group" üzrə Baş Maliyyə Direktoru

J.C. Jacobsens Gade 11799

Kopenhagen V

Danimarka